**Müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət hər bir sahədə olduğu kimi, ölkə iqtisadiyyatında da özünü göstərir. Bu sahənin hərtərəfli inkişafını təmin etmək, o cümlədən davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq, regionlarda müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsini istifadəyə vermək, minlərlə yeni iş yeri yaratmaq Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsas məqsədlərindən biridir.**







# Zəfər yolu Füzulidən başlayır

Bu gün respublikanın bütün regionlarını inkişaf etdirmək, bölgələrdə zəruri infrastrukturu yeniləmək, işğaldan azad edilmiş ərazilərə qayıdışı təmin etmək istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, bölgələrimizin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etmək, ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək baxımından rayonların iqtisadi cəhətdən bölgüsü geniş perspektivlərə imkan yaradır.

Özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik - Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, Ağcabədi və Bərdə rayonları da daxil olmaqla Qarabağ iqtisadi rayonunun yaradılması qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafına müsbət təsirini göstərəcək, çoxşaxəli ölkə iqtisadiyyatının inkişafını daha da sürətləndirəcək, xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına öz töhfəsini verəcəkdir.

Qarabağ iqtisadi rayonlarından biri də vaxtilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Füzuli rayonudur. 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Füzuli rayonunda olarkən Füzuli şəhərində Azərbaycan bayrağını qaldırmış, səfər zamanı Füzuli-Şuşa avtomobil yolunun - Zəfər yolunun təməlini qoymuşdur. Vətən müharibəsindən sonra dəfələrlə Füzuli rayonunda olan dövlət başçısı səfərləri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının, Horadiz-Ağbənd dəmir yol xəttinin, Füzuli-Hadrut avtomobil yolunun təməlini qoymuş, Füzuli yarımstansiyasının açılışında iştirak etmişdir. Aşağı Köndələnçay su anbarında yaradılan şəraitlə tanış olmuşdur.

1980-ci ildə suvarma məqsədilə yaradılmış Aşağı Köndələnçay su anbarı Füzulidə, Köndələnçay üzərində yerləşir. Rayon erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra ümumi tutumu 9,5 milyon kubmetr olan, 63 min hektar sahəni suvarmağa imkan verən Köndələnçay su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdur. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar. Dövlət başçısı İlham Əliyevin göstərişi əsasında Köndələnçay su anbarının bərpası işləri aparılır.




Torpaqlarımız işğaldan azad edildikdən sonra ötən il yanvar ayının 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun təməlini qoymuşdur. Ordumuzun Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunu dövlətimizin başçısı Zəfər yolu adlandırmışdır. Qələbə günündən 8, Ermənistanın kapitulyasiyasından 6 gün sonra tikintisinə başlanılan Füzuli şəhərindən Şuşa şəhərinə çəkilən bu yol işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihə olaraq həm də rəmzi məna daşıyır. Dövlət başçısının müvafiq Sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, Füzuli, Xocavənd və Xocalı rayonlarının 20-dən artıq yaşayış məntəqəsini də əhatə edəcək Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikilməsinə 50 milyon manat vəsait ayrılmışdır.

2021-ci ilin avqust ayında Füzuliyə növbəti səfəri zamanı ölkə başçısı burada aparılan tikinti işləri ilə tanış olmuşdur.

Səfər zamanı, həmçinin Füzuli rayonunda hava limanının da təməli qoyulmuşdur. Füzulidə hava limanının tikilməsi ölkənin bu bölgəsi ilə rahat və operativ əlaqənin saxlanılması, işğaldan azad edilən ərazilərin inkişafı, o cümlədən turizm imkanlarının artması üçün də əlverişli şərait yaradacaq, turistlərin daha sərfəli, qısa yolla birbaşa işğaldan azad edilən ərazilərimizə getməsinə, Şuşa və digər şəhərlərimizi ziyarət edə bilmələrinə imkan verəcək. Naxçıvan və Türkiyəni birləşdirən yolun üzərində yerləşərək Zəfər yoluna birləşdirilən Füzuli hava limanı iqtisadi baxımdan səmərəli olmaqla bərabər, rayonun strateji əhəmiyyətini də artıracaq. Bu hava limanı Azərbaycanın logistik imkanlarını artıracaq ki, bu da bölgənin iqtisadi əlaqələrinin genişlənməsi baxımından vacib amildir. İyunun 14-də Füzuli rayonunda olarkən dövlət başçısı Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə maraqlanıb.

2021-ci il fevralın 14-də Füzuli rayonunda səfərdə olan İlham Əliyev Füzuli rayonunda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyatına töhfə verən Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuş və regionu birləşdirən dəmir yolu xəttinin əhəmiyyətini qeyd edərək demişdir: "Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".

Olduqca böyük strateji əhəmiyyətə malik, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xətti Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Füzuli rayonuna növbəti səfərində - mart ayının 15-də ölkə başçısı Füzuli-Hadrut avtomobil yolunun təməlini qoymuş, Bərdə-Ağdam yolunun çəkiləcəyini bildirmiş, böyük quruculuq işlərinin davam edəcəyini diqqətə çatdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Füzuli rayonuna səfərində Füzuli-Ağdam avtomobil yolunun, "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin və işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in təməlini qoymuşdur.

Ötən il Füzuli rayonunda 3 ay ərzində inşa edilən, rayondakı strateji obyektləri, hava limanı, o cümlədən Füzuli-Şuşa yolunu, eləcə də əhali və qeyri-əhali abonentlərini elektrik enerjisi ilə təmin edəcək Füzuli yarımstansiyası istifadəyə verildi. İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə yarımstansiyanın açılışı oldu. Yeni aeroportun və Zəfər yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə inşa olunacaq bütün infrastruktur obyektlərini elektrik enerjisi ilə təchiz edəcək. Bu səfərində ölkə başçısı həmçinin, Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin təməl daşını qoymuşdur.

Oktyabr ayının 26-da Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmiş, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimlərində iştirak etmişlər.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün işğaldan azad edilmiş bütün bölgələrimizdə böyük Zəfərimizin davamı olan genişmiqyaslı tikinti-quruculuq və bərpa işləri həyata keçirilir. 27 il ərzində mənfur düşmən tərəfindən yerlə-yeksan edilmiş Füzuli rayonu da bu gün yenidən qurulur, dirçəldilir. Rayonda şəhərsalma üzrə yerli və xarici mütəxəssislər yeni şəhərsalma planı üzərində işləyir. Planda kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası xüsusi yer tutur.

Aparılan islahatlar, yaranan yeni reallıqlar ölkə iqtisadiyyatının və eyni zamanda Qarabağın inkişaf strategiyasında mühüm rol oynayacaq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**